# SİNİFDƏN XARİC OXU



Qulu AĞSƏS

*Balığı at dəryaya.*
*Bunu balıq da bilməlidi,*
*bunu xaliq də bilməlidi,*
*bunu dəryadakı o biri*
*balıqlar da bilməlidi.*
*Və nəhayət, ən vacibi -*
*bunu dəryaya tilov atan*
*hər kəs bilməlidi.*

Kamal ABDULLA

Bəri başdan xəbərdarlıq eləyirəm: Kamal Abdullanın "Tarixsiz gündəlik" kitabını oxumayan, oxuyub da bəyənməyən adamlar üçün deyil bu yazı.

Getməyə yer tapmayanda "mənim vətənim - mənim uşaqlığımdı" (Ç.Aytmatov) deyənlərdən ötrüdü.

İnsan bütün ömrü boyu qazandığı bilginin 80 faizinə 5 yaşınacan (!) vaqif olur - hikmətinin qabağında susanlardan yanadı.

Dünəni olanların, dünənə dönməyi bacaranlaran şəninədi.

Məktəbli şair Mirzə Nazimin adınadı.

Bəli, bir belədi bu yazı. Rus dili müəlliməsi Mariya Semyonovnanın həqiqəti boyda: "Nə azdı, nə çox - nədisə, odu"...

Bütün bunlar bir azdan olacaq, lap tezliklə. Hələlik Nazim sağdı: oxuyur, sevir, şeir yazır, şatalçılara qoşulub dərsdən qaçır, az qala hər ay xəstəxanada müalicə olunur, sinif yoldaşlarının inşa yazılarını yoxlayıb qiymət verir, şatalçıların Sabirin heykəlinin böyür-başında, qala divarlarının hansısa daşının altında, ya da yanında gizlətdikləri qəşəng, xarici siqaretdən çəkir, kiminsə sirrindən ondan xəbərsiz agah olur, "şairəm, çünki vəzifəm budu... ənam alım" atmacalarına gah dözür, gah da yumruq davasına çıxır, hər tədbirdə təzə şeir sifarişi qəbul eləyir, misraları əvvəl xoşluqla çağırır, canına yazığı gələn özünə qamçı vurdurmur, qaçıb gizləněni qulağından tutub dördlüyün içinə atır, riyaziyyatdan axsayır, Henrix Heynenin yaradıcılığı ilə öz yazıları arasında paralellər axtarır, hamı onu gələcəyin böyük şairi saysa da, o, "həyat dalğadı, hara aparar-aparar" düşüncəsiylə hərdən arzuların ağzını boza verir və günlərin bir günü özündən sonra bir qalaq şeir, bir də "Tarixsiz gündəlik" əmanət qoyub bu dünyadan gedir... Az qala sufi hekayətindəki kimi. Sufi "istəsəm, ölərəm" deyir və ölür... Amma Mirzə Nazim o şeirlərin dalınca qayıdacaq, əvvəl universitetə girəcək, sonra aspiranturaya, ən cavan filologiya elmləri namizədi adını ən qoca kişidən - Dədə Qorquddan alacaq, bir vaxtlar Zərbəli müəllimin köməyi ilə bircə şeir oxuduğu televiziyada veriliş aparacaq, sonra esseistika, sonra doktorluq, dramaturgiya, tərcümə, nəsr və yenidən poeziya... Bu dəfə hamısı bir yerdə - bir *sinif* kimi... Görəsən, Firəngiz bilirmi Nazimin sağ olduğunu? "Böyük adam olanda bizi (yəni: məni) unutma" - deyərdi Nazimə. Maraqlıdı, onlardan kim kimi unudub?..

Bakının 190 saylı məktəbində oxumuş, şeirləri ilə öz çevrəsində Mirzə Nazim ləqəbi qazanmış, hətta çox qısa ömründə televiziyada şeir oxumağa macal tapmış və amansız xəstəlik üzündən10-cu sinfi bitirməyə imkan bulmamış bir oğlan danışır "Tarixsiz gündəlik"də. O dillənəndə hamı susur. Sinif yoldaşları: Aslan, Azər, gözəllər gözəli Qənirə, Arzu, Şərqiyyə müəllimə, Çərbəli müəllim, guya hamıdan xəlvəti Sevdiyi Firəngiz... O özü də hər axşam susur. Düz saat 9-da! Firəngiz zəng vuranda! Amma bu sükutun içində də ən çox danışan odu -məktəbli şair Mirzə Nazim. Bir gün o susacaq. Bax onda hamı danışacaq: Sinif yoldaşları Aslan, Azər, gözəllər gözəli Qənirə, Arzu, Şərqiyyə müəllimə, Zərbəli müəllim, guya hamıdan xəlvət sevdiyi Firəngiz, ata-anası, bacısı...Yasında qəmlənəcəklər, ağlayacaqlar... onları təzədən, o dünyadan görməyə gələn ürəyi quş kimi uçub məhəccərə qonacaq... bu vaxt ən doğma adamı özünü ovutmaq üçün göz yaşını silə-silə eyvana çıxacaq... görəcək ki, məhəccərə balaca, ürək boyda bir quş qonub... əliylə o quşu qovub uçuracaq...

Bunları bilməsək də olar. Amma hörmətli Kamal Abdulladan bir xahişim var: Mirzə Nazimin dostlarının siqaret gizlətdikləri qala divarlarının oyuğuna hərdən bir-iki paçka "Kent" alıb qoyun. Həm 190 saylı məktəbin indiki şatalçıları çəksinlər, həm də (və ən başlıcası!) köhnə xatirələrə güvə düşməsin...